# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 239/2** **25 yanvar 2013-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2012-ci ildə keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələri barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununu,“Azərbaycan Republikasının Auditorlar Palatası haqqında” Əsasnaməni, Azərbaycan Respublikası-nın Auditorlar Palatası Şurasının 2000-ci il 1 aprel tarixli 52/3 saylı qərarı ilə təsdiq edilmiş “Auditorların ixtisasartırma qaydaları”na Auditorlar Palatası Şurasının 2010-cu il 20 aprel tarixli 208/5 saylı qərarı ilə edilmiş əlavə və dəyişiklikləri rəhbər tutaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2012-ci ildə keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələrini müzakirə edərək, Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2012-ci ildə keçirilən ixtisasartırma kurslarında test nəticələrinə dair İxtisasartırma Komissiya-sının protokolları nəzərə alınsın (1 və 2 saylı protokollar əlavə olunurlar).
2. Auditorların ixtisasartırma qaydalarının 6.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinə Rauf Kamil oğlu Həsənovun, Afiq Tofiq oğlu İsrəfilovun və Vüsal Qasım oğlu İbrahimlinin ixtisasartırma kurslarında iştirak etməmələri barədə Auditorlar Palatasına göndərdikləri məktubda göstərdikləri üzürlü səbəblər nəzərə alınsın və növbəti illərdə təşkil ediləcək ixtisasartırma kurslarında iştirakları zərurəti onların nəzərlərinə çatdırılsın.
3. Auditorların ixtisasartırma qaydalarının 6.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinə Pərvin Ehtiram oğlu İsmayılova və Üzeyir Cəmil oğlu Fətiyevə ixtisasartırma kursunda il ərzində üzürsüz səbəbdən iştirak etmədiklərinə görə xəbərdarlıq edilsin və növbəti illərdə təşkil ediləcək ixtisasartırma kurslarında iştirak etmələri onlardan tələb olunsun.
4. Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, auditorların, o cümlədən auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən xüsusi razılığı (lisenziyanı) müvəqqəti olaraq Palataya qaytaran şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəq vermiş və xüsusi razılığı (lisenziyanı) almamış şəxslərin Palatanın növbəti illərdə də keçirdiyi ixtisasartırma kurslarında iştirakları təmin edilsin.

5. Auditorlar Palatası Aparatının rəhbərinə (Q.Bayramov) tapşırılsın ki, bu qərarın auditorların nəzərinə çatdırılması üçün Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**